# QÜDRƏTLİ FIRÇA USTASI

## *Tahir Salahovun yaradıcılığı haqqında düşüncələr...*



**Ziyadxan Əliyev**

Yarım əsrdən artıqdır ki, azərbaycanlı fırça ustası Tahir Salahovun (1928) adı əvvəlcə keçmiş SSRİ-nin, az sonra isə dünya təsviri sənəti tarixinə daxil olub. Bu gün onun adı dünyanın ən məşhur rəssamları sırasında çəkilir. Şöhrət onu çox tez tapmışdır, desək, səhv etmərik. V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunu bitirəndə onun 29 yaşı vardı. Sənətdə kamillik mərhələsi sayılan əlli yaşa çatmamış SSRİ və respublika Dövlət mükafatlarına layiq görülmüş, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü seçilmiş, rəngkarlıq üzrə professor olmuşdur. Etiraf edək ki, bu yaşda belə yüksək şərəfə sovet rəssamlığı tarixində az-az sənətkar nail ola bilmişdi. Hazırda isə Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, çoxsaylı orden və medalların sahibi olan akademik Tahir Salahov dünyanın neçə-neçə nüfuzlu elm-sənət ocağının fəxri üzvüdür. Sözsüz ki, bu şöhrət, yüksək ictimai mövqe və sənətkarlıq təsdiqi yalnız onun böyük zəhmətinin və gərgin yaradıcılıq axtarışlarının nəticəsidir...

Zamanında dünyaya "sərt baxış"ı ilə öz sənətkar "mən"ini təsdiqləyən Tahir Salahov ixtisas təhsilini əvvəlcə Bakıda, sonra isə Moskvada almışdır.

Moskvada V.İ.Surikov adına Rəssamlıq İnstitutunda təhsil alarkən Tahir Salahovun diplom işinə təsvir materialı toplamaq məqsədilə doğma Neft Daşlarına səfəri, ona uğurlu yekun əsəri yaratmağa imkan verdi. Eyni zamanda müəllif əsərin özünəməxsus bədii forma-biçim şərhi ilə dünya və sovet rəssamlığında "sərt üslub" deyilən bir sənət yönümünün yaradıcısı oldu. Əgər bu meylin mahiyyətini açıqlasaq və T.Salahovun öz fikri ilə ifadə etsək, belə deyə bilərik. "Sərt üslub" əslində, sənətdə həqiqəti ifadə etməyin naminə naturanı kor-korana təqlidçilikdən imtina etmək, obrazın bütövlüyü naminə xırdaçılıqdan uzaqlaşmaq idi.

Əlavə edək ki, Tahir Salahovun yaratdığı üfüqi kompozisiyalı "Növbədən qayıdanlar" (1957) əsəri yüksək bədii ifadəliliyinə görə neftçilərin həyatından bəhs edən ən yaxşı tablo kimi sənət tariximizə daxil oldu. Möhtəşəmliyi birmənalı olan tabloda tamaşaçı gözü qarşısında canlanan fədakar əmək adamlarının əli ilə ucaldılmış estakada üzərində neftçilərin əzmkar və romantik hərəkətləri bir qədər sərt və yığcam rəng həllində çox cəlbedici və yaddaqalandır...

O vaxtlar gənc azərbaycanlı rəssamın dünyaya bədii baxışında sərgilədiyi sərt-romantik baxış təsviri sənətdə yeni idi. Odur ki, realizmin bədii ifadə imkanlarını genişləndirməyə yaradıcı iqtidarı çatmayan və bunu davamlı olaraq nümayiş etdirən sovet rəssamlıq məktəbi üçün bu fərqli və özünəməxsus bədii şərh novatorluq kimi qəbul olundu. Onun sovet məkanında çoxlu davamçısının üzə çıxması, 1968-ci ildə rəssama SSRİ Dövlət mükafatının verilməsi də Tahir Salahov "sərt üslub"unun rəsmi təqdiri oldu.

Əgər rəssamın dünyaya "sərt baxışı"nı xronoloji ardıcıllıqla izləməli olsaq, onda öncə onun Bakıya qayıtdıqdan sonra çəkdiyi "Səhər qatarı" (1958), "Çənlər parkı" (1959) və "Neftçinin portreti" (1959) tablolarının adını çəkməklə, bu əsərlərin başladığı yeni işin növbəti bədii axtarışların ifadəsi olduğunu söyləməliyik. Bununla belə hiss olunurdu ki, gənc rəssamın sənaye və əmək mövzusunda axtarışları hansısa daha əhatəli əsərin yaradılmasına yönəlib. Az sonra onun 1960-cı ildə yaratdığı "Təmirçilər" tablosu bunun əyani ifadəsinə çevrildi.

Əmək mövzusuna həsr olunmuş çoxfiqurlu tablo kompozisiyasına görə nə qədər sadə idisə, romantik duyğuların qeyri-ənənəvi sərtliyinə görə, daha doğrusu, bu cür bədii şərhə görə yeni idi. Tablodakı neftçi fəhlələrin ciddi baxışlı simaları təbii göründüyü kimi, əllərin və ayaqların bir qədər standart-real ölçüdən kənara çıxan iriliyi də qəribəliyinə baxmayaraq, inandırıcıdır. Kamera baxışının yarada biləcəyi bu qabarıqlıq həm də rəssam təxəyyülü ilə qoşalaşdığından fəhlə obrazını səciyyələndirən möhtəşəmlik kimi qəbul olunur. Odur ki, ciddi və sərt, yığcam boyaların ahəngindən yaranan bu monumental tablo sonralar daha çox naturaya meyilliliyi ilə fərqlənən sosialist realizmi ideoloqlarını da məftun etmişdi. Yalnız indi - zaman distansiyasından görünən bu pilot əsər-sənət qələbəsi geniş mənada rəssamların ənənəvi sosialist realizminin donuq ənənələrinə yeni çalarlar əlavə etməsinə təkan verdi. Onları başlarının üstündən asılan Domokl qılıncından çəkinməyərək daha sərbəst əsərlər yaratmağa həvəsləndirdi.

Bu qələbə T.Salahovun özünə də yeni impuls verdi və o, 1960-cı ildə novatorluğa meylinin ifadəsi olan "Bəstəkar Qara Qarayevin portreti" əsərini yaratdı. Yaradıcı insana həsr olunmuş bu tablonun kompozisiyası əmək mövzusundakı əsərləri kimi orijinal və yeni idi. Royal qarşısında fikirə qərq olmuş obraz profil təsvir olunsa da, bəstəkarın yaradıcılıq axtarışlarına istiqamətlənmiş ilhamlı qətiyyəti duyulmaqdadır. Bu əsərdə də T.Salahov yığcam rəng və güclü bədii ümumiləşdirmə sayəsində obrazın və bütünlükdə əsərin monumentallığına nail olmuşdur. Portret yüksək bədii məziyyətlərinə görə 1962-ci ildə SSRİ Rəssamlıq Akademiyasının gümüş medalına layiq görülmüşdür.

Tahir Salahovun kifayət qədər zəngin olan bədii irsi ilə tanışlıq göstərir ki, müxtəlif janrlarda çəkilmiş əsərlərinin başqalarından seçilməsini ilk növbədə onun gerçəkliyə çox fərqli baxışı, adilikdə qeyri-adilik görə bilməsi, sadəlikdə hifz olunan gözəllik qaynağını üzə çıxara bilməsi, insan qayğılarını mənalandırmaq bacarığı şərtləndirir. Onun "Səhər eşalonu" (1958), "Neftçinin portreti" (1959) "Bəşəriyyət naminə" (1961), "Koroğlu" (1962), "Torpaq" (1963), "Abşeron motivi" (1964),"Abşeron qadınları" (1967), "Yeni dəniz" (1970) və s. əsərləri bu qəbildəndir.

Rəssamın 1967-ci ildə yaratdığı "Aydan" əsəri isə bütün mənalarda elə həmin ildə ərsəyə gətirilən "Abşeron qadınları"ndan fərqlənir. Öncə deyək ki, tamaşaçını hələ dünyanın günahlarına bulaşmayan və hələ də uşaqlıq dünyası ilə baş-başa qalmış atalı-analı qızcığazın arzularla dolu baxışları ilə göz-gözə qoyan T.Salahov, əslində, onun barəsində formalaşan dünyaya "sərt baxış"la baxan rəssam ayamasını üstündən atmış oldu. Belə ki, kiçik qızı Aydanın təsvir olunduğu bu əsərdə zərif və bəyaz rəng çaları ilə gerçəkləşən və zamanında sovet uşaqlığının rəmzi kimi qəbul olunan obrazın daşıdığı lirik-poetik bədii-estetik tutum kifayət qədər ovsunlayıcı və duyğulandırıcıdır. Keçmiş SSRİ-nin çox nüfuzlu sənət saxlanclarından sayılan Tretyakov qalereyasında (Moskva) nümayiş olunan bu portretin müəllif təkrarının 2015-ci ildə məşhur Sotbi hərrac evində 427 min manata satılması da əsərə olan beynəlxalq marağı ifadə edir.

Tahir Salahovun sonrakı illərdə çəkdiyi "Xalq şairi Rəsul Rzanın portreti" (1971), "Marinanın portreti" (1972), "Dmitri Şostakoviçin portreti" (1975), "Üzeyir Hacıbəyli" (1977), "Anamın portreti" (1980), "Xəzərdə səhər" (1985), "Kinoaktyor Maksimilian Şellin portreti" (1991), "Rəssam Xristonun portreti" (1997), "Mstislav Rostropoviçin portreti" (2000) və "A.Soljenitsinin portreti" (2013) əsərləri onun insan psixologiyasını "sərt üslub"la şərh etməsinin orijinal nümunələridir. Gerçəkliyə və insan şəxsiyyətinə yönəlmiş qeyri-adi qabarıqlığın rəssam təxəyyülü ilə obrazların duyulası dərəcədə möhtəşəm, tablolar isə bütünlükdə bədii-estetik dəyərin yüksəkliyinə görə monumental qəbul olunurlar.

Rəssamın dünyaya "sərt baxışı"nın digər janrlarda təzahürü də özünəməxsusluğu ilə seçilir. Bunu onun müxtəlif illərdə çəkdiyi çoxsaylı natürmort və mənzərələr də təsdiqləyir.

Tahir Salahovun altmış ilə yaxın bir zaman kəsiyində davam edən dünyaya "sərt baxış"ı bütün dövrlərdə onun yeganə, həm də yeni məziyyətlərlə zənginləşən bədii "silahı" olmuşdur. Bütün bunların ona misilsiz şöhrət gətirməsi isə məntiqli bir nəticədir, dünya incəsənətini zənginləşdirmənin təqdiridir...

Hazırda ömrünün müdriklik çağını yaşayan görkəmli sənətkar yaradıcılığı boyu müxtəlif janrlara, çeşidli mövzulara müraciət etsə də, özünün zəngin bədii irsini hamının görmək istədiyi bir əsərlə zənginləşdirmək arzusundadır. Qarabağ müharibəsinə həsr olunmuş bu əsərdə rəssam qələbə bayrağını dünyəmin mövqeyində dalğalandıracaq qalib əsgərin portretini əks etdirmək istəyindədir. Elə biz də bunun arzusundayıq. Odur ki, bu məqamda biz də "Bu arzun da çin olsun, ay ustad!" deyirik...



Tahir Salahov



Fikrət Əmirovun portreti



Dmitri Şostakoviçin portreti



Hind xoruzu yazda



Qara Qarayevin portreti